| | |
|---|---|
| AKTIN NÖVÜ | AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANLARI |
| QƏBUL EDİLDİYİ TARİX | 07.03.2013 |
| QEYDİYYAT NÖMRƏSİ | 838 |
| ADI | 2012-ci il sentyabrın 28-də Yalta şəhərində Azərbaycan Respublikası Hökuməti tərəfindən qeyd-şərtlə imzalanmış “Müstəqil Dövlətlər Birliyində malların mənşə ölkəsinin təyin edilməsi Qaydaları haqqında 2009-cu il 20 noyabr tarixli Sazişə dəyişikliklər edilməsi barədə Protokol”un təsdiq edilməsi haqqında |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Respublika Qəzeti (Dərc olunma tarixi: 08-03-2013, Nəşr nömrəsi: 53), Azərbaycan Qəzeti (Dərc olunma tarixi: 10-03-2013, Nəşr nömrəsi: 54), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-03-2013, Nəşr nömrəsi: 03, Maddə nömrəsi: 240) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | 08.03.2013 |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 430.000.000 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX | 31.03.2013 |

**2012-ci il sentyabrın 28-də Yalta şəhərində Azərbaycan Respublikası Hökuməti tərəfindən qeyd-şərtlə imzalanmış "Müstəqil Dövlətlər Birliyində malların mənşə ölkəsinin təyin edilməsi Qaydaları haqqında 2009-cu il 20 noyabr tarixli Sazişə dəyişikliklər edilməsi barədə Protokol"un təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2012-ci il sentyabrın 28-də Yalta şəhərində Azərbaycan Respublikası Hökuməti tərəfindən qeyd-şərtlə imzalanmış "Müstəqil Dövlətlər Birliyində malların mənşə ölkəsinin təyin edilməsi Qaydaları haqqında 2009-cu il 20 noyabr tarixli Sazişə dəyişikliklər edilməsi barədə Protokol" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Fərmanın 1-ci hissəsində göstərilən Protokolun həyata keçirilməsi ilə əlaqədar lazımi tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Fərmanın 1-ci hissəsində göstərilən Protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsini xəbərdar etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 7 mart 2013-cü il
838

**Müstəqil Dövlətlər Birliyində malların mənşə ölkəsinin təyin edilməsi Qaydaları haqqında 2009-cu il 20 noyabr tarixli Sazişə dəyişikliklər edilməsi barədə**

**P R O T O K O L**

Bundan sonra Tərəflər adlandırılacaq, Müstəqil Dövlətlər Birliyində malların mənşə ölkəsinin təyin edilməsi Qaydaları haqqında 2009-cu il 20 noyabr tarixli Sazişin iştirakçısı olan dövlətlərin hökumətləri,

**aşağıdakılar barədə razılığa gəldilər:**

**Maddə 1**

Malın müəyyən ölkə mənşəli hesab olunması üçün həmin ölkədə yerinə yetirilən istehsal və texnoloji əməliyyatların, şərtlərin siyahısına (Müstəqil Dövlətlər Birliyində malların mənşə ölkəsinin təyin edilməsi Qaydaları haqqında 20 noyabr 2009-cu il tarixli Sazişin ayrılmaz hissəsi olan malların mənşə ölkəsinin təyin edilməsi Qaydalarına Qoşma 1) aşağıdakı dəyişikliklər edilsin:

1. XİF ƏN "1501 00-dan" kodlu sətir aşağıdakı redaksiyada verilsin:

| | | |
|---|---|---|
| 1501-dən | Sümük piyi və ya tullantılardan alınan piy | 0203, 0206 və ya 0207, və ya 0506-cı mövqelərin materialları istisna olmaqla, istənilən mövqedəki materiallardan hazırlanma; 0203 və 0206-cı mövqedəki donuz ətindən və ya submәhsullardan, və ya 0207-c i mövqedəki quş ətindən və ya submәhsullardan hazırlanma |

2. XİF ƏN "1502 00-dan" kodlu sətir aşağıdakı redaksiyada verilsin:

| | | |
|---|---|---|
| 1502-dən | Sümük piyi və ya tullantılardan alınan piy | 0201, 0202, 0204 və ya 0206, və ya 0506-cı mövqelərin materialları istisna olmaqla, istənilən mövqedəki materiallardan hazırlanma |

3. XİF ƏN "2403 10" kodlu sətir aşağıdakı redaksiyada verilsin:

| | | |
|---|---|---|
| 2403 11 000, 2403 19 | Tərkibində istənilən nisbətdə tütün əvəzləyiciləri olan və ya olmayan çəkməli tütünü | İ s t ə n i l ə n mövqedəki materiallardan hazırlanma. Lakin, istifadə olunan 2403 mövqedəki materialların dəyəri son məhsulun qiymətinin 50%-dən çox olmamalıdır |

4. XİF ƏN "2932 99 700" kodlu sətir aşağıdakı redaksiyada verilsin:

| | | |
|---|---|---|
| 2932 99 000-dan | Tərkibində digər oksigenli funksional qruplar olan və ya olmayan digər dövri asetallar və daxili hemiasetallar, və onların halogenləşdirilmiş, sulfirləşdirilmiş, nitrləşdirilmiş və ya nitrozlaşdırılmış törəmələri | İstənilən mövqedəki materiallardan, o cümlədən 2932 mövqeyin digər materiallardan hazırlanma |

5. XİF ƏN “2932 99 850-dən” kodlu sətir aşağıdakı redaksiyada verilsin:

| | | |
|---|---|---|
| 2932 99 000-dan | Adi daxili efirlər | İstənilən mövqeli materiallardan hazırlanma. Lakin, istifadə olunan 2909 mövqedəki materialların dəyəri son məhsulun qiymətinin 50%-dən çox olmamalıdır |

6. XİF ƏN “3920 10 270-dən” kodlu sətir aşağıdakı redaksiyada verilsin:

| | | |
|---|---|---|
| 3920 10 250-dən | Qalınlığı 0,125 mm-dən artıq olmayan və xüsusi çəkisi 0,94-dən az olan polietilen plyonka və təbəqələr və ya lentlər, çap olunmuş şəkil və mətn ilə, rulonlarda | İstənilən mövqedəki materiallardan hazırlanma. Lakin həmin mövqedəki istifadə olunan materialların dəyəri son məhsulun qiymətinin 50%-dən çox olmamalıdır |

7. XİF ƏN “4017 00” kodlu sətir aşağıdakı redaksiyada verilsin:

| | | |
|---|---|---|
| 4017 00 000 | Tullantılar və skraplar daxil olmaqla bütün formalarda bərk rezin (məsələn, ebonit); bərk rezindən məmulatlar | Bərk rezindən hazırlanma |

8. XİF ƏN “6803 00-dan” kodlu sətir aşağıdakı redaksiyada verilsin:

| | | |
|---|---|---|
| 6803 00 000-dan | Təbii və ya aqlomerasiya edilmiş şistdən məmulatlar | Emal olunmuş şistdən hazırlanma |

9. XİF ƏN “8608 00” kodlu sətir aşağıdakı redaksiyada verilsin

| | | |
|---|---|---|
| 8608 00 000 | Dəmiryol və tramvay yol avadanlıqları və qurğuları; mexaniki (elektromexaniki daxil olmaqla) siqnal avadanlıqları, dəmir yollarında, tramvay, avtomobil, daxili su yollarında, dayanacaq qurğularında, limanlarda və hava limanlarında təhlükəsizlik və hərəkətin idarə edilməsini təmin edən vasitələr; sadalanan avadanlıqların və qurğuların hissələri | İstifadə olunan bütün materialların dəyəri son məhsulun qiymətinin 50%-dən çox olmamaqla hazırlanma. Son məhsulun mövqeyi ilə eyni mövqedə təsnifləşdirilən materiallardan, dəyəri son məhsulun qiymətinin 5%-dən çox olmamaqla istifadə oluna bilər |

**Maddə 2**

Bu Protokol imzalandığı tarixdən etibarən 60 gündən sonra müvəqqəti olaraq tətbiq olunur və onu imzalamış Tərəflərin onun qüvvəyə minməsi üçün lazımi olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə üçüncü bildirişin depozitari tərəfindən alındığı tarixdən etibarən 30 gün keçdikdən sonra qüvvəyə minir.

Dövlətdaxili prosedurları bundan gec yerinə yetirən Tərəflər üçün bu Protokol müvafiq sənədlərin depozitari tərəfindən alındığı tarixdən 30 gün keçdikdən sonra qüvvəyə minir.

Yalta şəhərində 2012-ci il 28 sentyabr tarixində bir əsl nüsxədə rus dilində imzalanmışdır. Əsl nüsxə hazırkı Protokolu imzalamış hər bir dövlətə, onun təsdiq edilmiş surətini göndərəcək Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsində saxlanılır.

**Azərbaycan Respublikası**
**Hökuməti adından**
*imza (qeyd-şərtlə)*

**Ermənistan Respublikası**
**Hökuməti adından**
*imza (qeyd-şərtlə)*

**Belarus Respublikası**
**Hökuməti adından**
*imza*

**Qazaxıstan Respublikası**
**Hökuməti adından**
*imza*

**Qırğız Respublikası**
**Hökuməti adından**
*imza*

**Moldova Respublikası**
**Hökuməti adından**
*imza*

**Rusiya Federasiyası**
**Hökuməti adından**
*İmza*

**Tacikistan Respublikası**
**Hökuməti adından**
*imza*

**Türkmənistan**
**Hökuməti adından**
-----

**Özbəkistan Respublikası**
**Hökuməti adından**
-----

**Ukrayna**
**Hökuməti adından**
*imza (qeyd-şərtlə)*

**Müstəqil Dövlətlər Birliyində malların mənşə ölkəsinin təyin edilməsi Qaydaları haqqında 2009-cu il 20 noyabr tarixli Sazişə dəyişikliklər edilməsi barədə**
**2012-ci il 28 sentyabr tarixli Protokola dair**
**Azərbaycan Respublikasının**
**QEYD-ŞƏRTİ**

Protokolun 2-ci maddəsinin "imzalandığı tarixdən etibarən 60 gündən sonra müvəqqəti olaraq tətbiq olunur və" ifadəsi istisna olmaqla.

**Azərbaycan Respublikası**
**Baş nazirinin birinci müavini** *imza* **Yaqub Eyyubov**